# Gəncənin raket atəşinə tutulmasından 4 il ötür

## Şəhər əhalisi faciənin qurbanlarını ehtiramla yad edir










Tarixin müxtəlif dönəmlərində Azərbaycan xalqı terror faktlarının, soyqırımlarının acı nəticələrini çox yaşamışdır. 44 günlük Vətən müharibəsində də xalqımız təcavüzkar siyasətlə üz-üzə qaldı. Bununla ermənilərin vəhşi siması bir daha aşkar oldu. Cəbhə bölgəsindən 100 kilometr uzaqda yerləşən Gəncəyə raket zərbələri endirilməsi erməni faşistlərinin təcavüzkar simasını bütün dünyaya göstərdi.

Dörd il əvvəl Ermənistanın növbəti təxribatına cavab verən Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ədaləti bərpa etmək üçün öz suveren hüquqlarının müdafiəsinə qalxdı. Vətən müharibəsi xalqımızın iradəsini, birliyini, əzmkarlığını, fədakarlığını ortaya qoydu. Xalqımız bu sınaqdan qalib kimi çıxaraq, əyilən qamətini düzəltdi. Azərbaycan ermənilər tərəfindən törədilən bütün cinayətlərin qisasını aldı. Ordumuz uğurlu döyüş əməliyyatları apararaq ərazilərimizi işğaldan azad etdi və 30 illik yurd həsrətinə son qoydu.

Lakin həmin dövr ermənilərin dinc əhaliyə qarşı törətdikləri vəhşiliklər gəncəlilərin yaddaşından heç vaxt silinməyəcək. Gecə yarı dinc əhalinin raket hücumuna məruz qalması, qocaların, qadınların, hətta azyaşlı uşaqların qanına qəltan edilməsi necə unudula bilər?!

4 il öncə Gəncə ermənilər tərəfindən 5 dəfə raket atəşinə tutulmuşdur. 2020-ci il oktyabrın 4-də, 5-də, 8-də, 11-də və 17-də atılan raketlər şəhərdə çoxlu dağıntılar törətməklə yanaşı, həm də xeyli sayda insan itkisinə səbəb olmuşdur. Ermənistan KİV-də, eləcə də sosial şəbəkələrdə törətdiyi cinayətləri pərdələməyə, həmin əməllərdən boyun qaçırmağa yönələn xəbərlər yaymağa çalışsalar da, hadisə yerlərindən yerli və xarici jurnalistlərin yaydıqları foto və videogörüntülər, hazırladıqları reportajlar bu yalanları ifşa etdi.

Gəncəlilər isə yaxşı başa düşürdülər ki, bu haqq savaşında ermənilərin törətdikləri qanlı olaylar suda boğulanın saman çöpündən yapışmasıdır. Elə buna görə də Ermənistanın Gəncəni raket atəşinə tutması sakinlər arasında ruh düşkünlüyü yaratmırdı. Əksinə, onlar inanırdılar ki, tezliklə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu düşmən üzərində qələbə çalacaqdır.

Gəncə faciələrindən 4 il ötür. Şəhər əhalisi bu günlər raketlər düşmüş ərazilərə gəlir, buradakı abidə kompleksini ziyarət edir, dağıntılar zamanı həlak olanların xatirəsinə ehtiram göstərərək önünə gül dəstələri düzürlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.-8 oktyabr (№ 220).- S.6.